

# Çatışmazlıqlar ləğv olunur

*Müsahibimiz Siyəzən Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdir əvəzi Nigar xanım Qəniyevadır. N.Qəniyeva 1960-cı ildə anadan olub. Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirib. Kitabxanaçı və uşaq kitabxanasının müdiri vəzifələrində çalışıb. 1992-ci ildən mədəniyyət şöbəsinə rəhbərlik edir.*

***Nigar xanımla Qozağacı kitabxanası və Məşri kənd klubunun təmiri ilə bağlı başladığımız söhbəti sonradan kollektivin keçən il gördüyü digər işlərə istiqamətləndiririk. O deyir:***

– Şöbəmiz özündə 31 (1 MKS, 1 uşaq və 17 filial kitabxana, rayon mədəniyyət evi, 10 klub müəssisəsi, uşaq incəsənət məktəbi) mədəni-maarif müəssisəsini birləşdirir. Burada 150 nəfər çalışır. Yuxarıda qeyd etdiyimiz təmir işlərindən başqa müəssisələrin inventar və avadanlıqla təchizatı istiqamətində də müəyyən işlər görülmüşdür.

Ötən illərdə olduğu kimi əlamətdar və tarixi günlər yüksək səviyyədə qeyd olunmuşdur. Bununla əlaqədar müxtəlif sərgilər, ədəbi-bədii gecələr, kompozisiyalar təşkil edilmişdir.

Baxımsız və küçə uşaqlarının problemlərinin həlli diqqət mərkəzində olmuşdur. Bu məqsədlə keçirilən tədbirlərdən rayon mədəniyyət evinin təşkil etdiyi «Uşaqların əl işləri» başlıqlı müsabiqə, internat məktəbinin «Hansı peşə



yaxşıdır?» mövzusunda hazırladığı disput maraqla qarşılanmışdır. Eyni sözləri «Biz sülh istəyirik», «Qoy həmişə günəş olsun», «Bilik», «Şən hazırcavablar», «İstedad sorağında» və s. tədbirlər haqqında da söyləmək olar. İlboyu biz həmçinin mədəni irsimizin qorunması və təbliği, beynəlxalq ailə ili, beynəlxalq ana dili günü, gənc nəslin təlim-tərbiyəsi, asudə vaxtın səmərəli keçirilməsi, vətənpərvərlik tərbiyəsi, qadın siyasəti, Böyük Vətən müharibəsində qələbənin 60 illiyi və s. bağlı tədbirlərimiz də yüksək səviyyədə hazırlanmışdır.

Kitabxanalarımızın ədəbiyyatla zənginləşməsi, abunə yazılışının vaxtında aparılması da daim diqqətimizdə olub.

***Ötən illərə nisbətən 2005-ci ili uğurla başa vurduq. Düşünürəm ki, cari ildə göstəricilərimiz daha yüksək olacaqdır. Onun üçün də işimizə çatışmazlıqların ləğvindən başlamış, məqsədə nail olmaq üçün bütün imkanlarımızı səfərbərliyə almışıq.***

**İ.Bayramov**